**Əminə Cəfərova**
*M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının şöbə müdiri, BDU-nun dissertantı*
amina.c@anl.az

# AZƏRBAYCAN RESPUBLİKASINDA SƏNƏDLƏRİN BİBLİOQRAFİK UÇOTUNUN APARILMASINDA KİTAB PALATASININ ROLU

**UOT: 015(479.24)**

*Məqalədə ölkə ərazisində sənədlərin biblioqrafik uçotunun aparılmasında Kitab Palatasının fəaliyyətindən, milli, cari və retrospektiv biblioqrafiyanın əhəmiyyətindən bəhs edilir. Eyni zamanda ilk dövlət biblioqrafiyası orqanı olan "Kitab Letopisi", "Azərbaycan Mətbuat letopisi", "Azərbaycan kitabı", "Birillik Azərbaycan kitabiyyatı", "Yeni kitablar" annotasiyalı biblioqrafik göstəricilərin müxtəlif illərdə nəşri xüsusiyyətləri, göstəricilərin strukturu və məzmunu, ölkənin elmi, mədəni, iqtisadi, ictimai-siyasi həyatında bir sıra sahələrin inkişafı və mövcud boşluqların aşkara çıxarılmasında Kitab Palatasının rolu işıqlandırılmışdır.*

***Açar sözlər:*** Azərbaycan Dövlət Kitab Palatası, sənədlərin uçotu, retrospektiv biblioqrafiya, cari biblioqrafiya, Azərbaycan Milli Kitabxanası, "Azərbaycan kitabı", "Azərbaycan mətbuat salnaməsi", "Birillik Azərbaycan kitabiyyatı", "Kitab letopisi", "Azərbaycan Jurnal məqalələri letopisi", "Azərbaycan Qəzet məqalələri letopisi".

**Giriş.** Ölkə ərazisində və onun hüdudlarından kənarda Azərbaycan haqqında çap olunan kitablara, toplanan informasiyaya əsasən ölkənin retrospektiv və cari milli biblioqrafiyasının yaradılması, onun təşkili 1925-ci ildə əsası qoyulmuş Azərbaycan Dövlət Kitab Palatasının fəaliyyətinin əsas istiqamətlərindən biri idi.

Kitab Palatasının tarixinə qısa nəzər salsaq görərik ki, Azərbaycan Respublikası Xalq Maarif Kommissarlığının yanında fəaliyyətə başlayan Dövlət Kitab Palatası müxtəlif illərdə müxtəlif komitə və nazirliklərin tabeliyində fəaliyyət göstərmişdir. Azərbaycan SSR Nazirlər Soveti Yanında Mədəni Maarif Müəssisələri Komitəsi, Azərbaycan SSR Mədəniyyət Nazirliyi, Azərbaycan SSR Nazirlər Soveti Dövlət Mətbuat Komitəsi, Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi, Mədəniyyət və Turizm nazirliyi kimi təşkilatların rəhbərliyində mövcud olan Kitab Palatası hal hazırda Azərbaycan Milli Kitabxanasında şöbə (Çap məhsullarının qeydiyyatı və Milli biblioqrafiya (Kitab Palatası) kimi fəaliyyət göstərir. Belə ki, respublikanın həyatında baş verən ictimai-siyasi hadisələr Kitab Palatasının fəaliyyətinə də öz təsirini göstərmiş, dövlət uçot qeyd biblioqrafiyasının aparılmasında müəyyən çətinliklərlə üzləşmişdir.

**Əsas hissə.** Dövlət Kitab Palatası fəaliyyəti müddətində uçot-qeyd biblioqrafiyası, Azərbaycan müəlliflərinin və Azərbaycan haqqında çap olunan nəşrlər haqqında biblioqrafik informasiya verilməsi məqsədilə Kitab letopisi (1926-1960-cı illər), Azərbaycan Mətbuat Letopisi (1929-cu ildən 1936-cı ilə kimi Azərbaycan Mətbuat Kitabiyyatı, 1967-ci ildən 1984-cü ilə kimi Azərbaycan Mətbuat Salnaməsi adı ilə nəşr olunmuşdur), Qəzet məqalələri salnaməsi, Jurnal məqalələri salnaməsi, Azərbaycan kitabı, Birillik Azərbaycan kitabiyyatı adlı biblioqrafik vəsaitləri nəşrə hazırlamışdır.

Kitab letopisi adlanan vəsaitdə Azərbaycan Respublikası ərazisində çapdan çıxan kitablar, kitabçalar, bəzən də jurnallar haqqında məlumat öz əksini tapırdı. Kitab letopisinin ilk nəşri 1926-ci ili əhatə etdiyinə görə Palata tərəfindən 1962-ci ildə 1920-1925-ci illəri əhatə edən letopis nəşr edilir. Müvafiq illərin qeydiyyatı heç bir yerdə aparılmadığına görə palatanın işçiləri keçmiş SSRİ respublikalarında xidməti ezamiyyədə olmuş, Azərbaycan dilində nəşr olunan kitablar haqqında informasiyanı toplamış, vəsaiti çapa hazırlamışlar. Adıçəkilən vəsaitə 640 adda kitab haqqında informasiya daxil edilmişdir. Vəsaitə adlar göstəricisi ilə yanaşı kitabların harada olmasının göstəricisi də daxil edilmişdir. Müharibə dövründə müvəqqəti olaraq fəaliyyətini dayandıran letopis müharibədən sonra nəşrini davam etdirmişdir. 1942-1946-cı illəri əhatə edən nəşr 1951-ci ildə çap edilmişdir.

İlk dövlət biblioqrafiyası orqanı olan kitab letopisində jurnallar haqqında qismən də olsa məlumat verilirdi. Qəzet və jurnal məqalələri haqqında informasiyaya gündən-günə artan oxucu tələbatı 1929-cu ildə Azərbaycan Mətbuat Letopisinin nəşrinin labüdlüyünə gətirib çıxarır. 1938-ci ildən jurnal və qəzet məqalələri letopisi ayrılaraq Azərbaycan Jurnal məqalələri letopisi (1954-cü ildən Jurnal məqalələri letopisi) 3 ayda bir dəfə və Azərbaycan Qəzet məqalələri letopisi (1954-cü ildən Qəzet məqalələri letopisi) ayda bir dəfə 500 nüsxə ilə çap olunurdu. Böyük Vətən Müharibəsinə qədər "Jurnal məqalələri salnaməsi"ndə həmin dövrdə Azərbaycan ərazisində Azərbaycan və rus dillərində çıxan "Aqitator bloknotu", "Azərbaycan tibb jurnalı", "Gənc bolşevik", "Müəllimə kömək", "Partiya işçisi", "Propaqandist", "Revolyusiya və kultura", "Sovet quruluşu", "Fəhlə-kəndli müxbiri", "Azərbaycan filialının xəbərləri" adlı jurnallarda dərc edilən məqalələrin biblioqrafik təsviri öz əksini tapmışdı. "Qəzet məqalələri salnaməsi" isə "Kommunist", "Ədəbiyyat qəzeti", "Gənc işçi", "Yeni yol", "Şərq qapısı", "Kirovabad bolşeviki", "Azərbaycan bədən tərbiyəsi", "Müəllim qəzeti" kimi qəzetlərdən götürülmüş ən mühüm məqalələrin biblioqrafik təsvirləri əks olunmuşdur [7,9]

Kitab Palatası hələ 1932-ci ildə "Azərbaycan Sosialist Şura Cəmiyyətinin məcmuələr kitabiyyatı. 1920-1930-cu illər" adlı jurnal məqalələrinin biblioqrafiyasını nəşr etdirmişdir [11,3-4]. Ərəb əlifbası ilə çap olunan materiallar biblioqrafiyada yeni əlifba ilə verilmişdir (latın əlifbası). Həmin nəşrin davamı olaraq palata 1965-ci ildə 1931-1938 və 1942-1946-cı illəri əhatə edən jurnal məqalələri letopisini nəşr etdirir.



Məlumat üçün bildirək ki, letopisə siyasi, elmi, bədii və tarixi əhəmiyyətini itirdiyinə görə bəzi məqalələr daxil edilməyib. Letopisdən istifadəni asanlaşdırmaq məqsədilə vəsaitin sonunda müəlliflərin əlifba göstəricisi və təsvir olunan mənbələrin göstəricisi verilmişdir. Letopisə daxil edilmiş 2256 məqalənin 1178- i Azərbaycan dilində, 1942-1946-cı illəri əhatə edən nəşrə daxil edilən 800 məqalənin 493-ü Azərbaycan dilindədir.

1982-1983-cü illərdə vəsaitlərin nəşri tamamilə dayandırılır.

Kitab Palatasının tarixini araşdırarkən məlum olur ki, ÜİK(b) MK-nin 22 noyabr 1940-cı il qərarında respublika kitab palatalarına dövlət biblioqrafiya qeydiyyatındakı boşluqların əhatə edilməsi təklif edilmiş, lakin bu məsələ açıq qalmışdır. Bu problem 1962-ci ildə kitab palatası direktorlarının XIII müşavirəsində yenidən ortaya qoyulmuşdur.

Cari dövlət biblioqrafiyasının qeydiyyatının aparılması məqsədilə palata 1961-ci ildə ilk dəfə olaraq "Birillik Azərbaycan kitabıyyatı" adlı vəsait çap etməyə başlamışdır. Əsasən elmi işçilər üçün nəzərdə tutulmuş, bu gün də kitabxana işçiləri üçün çox mühüm əhəmiyyət kəsb edən bu göstəricidə bir il ərzində respublika ərazisində çapdan çıxan dilindən, janr və mövzusundan asılı olmayaraq bütün kitab və kitabçalar barəsində tam biblioqrafik məlumat verilmişdir. 1960-cı ili əhatə edən ilk nəşr 31 şöbə üzrə qruplaşdırılaraq 1417 ədəbiyyat barədə məlumatı özündə əks etdirirdi. Vəsaitə daxil edilən ədəbiyyatın 957 nüsxəsi Azərbaycan dilində, 460 nüsxəsi isə rus və başqa dillərdə idi.

Gündən-günə dəyişən, artan oxucu tələbatını ödəmək üçün vəsait zamanla təkmilləşdirilmiş, 1970-ci ildən etibarən vəsaitdə 1969-cu ildə nəşr olunmuş kitab, kitabça, qəzet və jurnalların statistik məlumatı göstəriciyə daxil edilmişdir. Əgər vəsait 1960-cı ildə 1000 nüsxə tirajla nəşr olunmağa başlamışdırsa, 1970-ci ildə tirajın sayı 50 000 nüsxəyə çatdırılmışdır.

Lakin 1987-ci ildən etibarən müxtəlif təşkilati və maliyyə çətinlikləri səbəbindən vəsaitin nəşri tamamilə dayandırılmışdır.

Palata tərəfindən 1951-ci ildə "Azərbaycan kitabı" adlı retrosektiv xarakterli biblioqrafik göstərici çap olunur. Vəsaitdə 1940-1950-ci illəri əhatə edən on illik bir dövr ərzində Azərbaycan dilində çap olunan kitablar öz əksini tapır.

Mədəniyyət Nazirliyinin təsdiq etdiyi əsasnaməyə əsasən 3 cilddən ibarət olmalı olan "Azərbaycan kitabı" biblioqrafiyasının nəşrinə 1959-cu ildən hazırlıq gedir. İnqilabdan əvvəl 1920-ci ilə kimi olan dövrü əhatə edən nəşrlər birinci cildə, Sovet hakimiyyəti illərində çapdan çıxan kitablar ikinci (1920-1940-cı illər) və üçüncü (1940-1960-cı illər) cildlərə daxil edilməli idi [2,5].

Nəhayət, 1963-cü ildə 1780-1920- ci illəri əhatə edən "Azərbaycan kitabı"nın I cildi nəşr olunur. Bura 1329 adda kitab haqqında məlumat daxil edilir. Vəsaiti 10 adda köməkçi göstərici əhatə edir: mövzu göstəricisi, müəlliflərin, təxəllüslərin, sərlövhələrin, mütərcimlərin, naşirlərin, mətbəələrin adları, dillərin, coğrafi adların əlifba göstəricisi, kitabların hansı kitabxanada olduğuna dair göstərici. Bu cilddə Azərbaycan dilində dünyanın müxtəlif ölkələrində -

Türkiyə, Polşa, Özbəkistan, Rusiya və s. ölkələrdə çap edilmiş kitabların da biblioqrafik təsviri verilmişdir.

Azərbaycan kitabının keçdiyi yolu, həyat və məişəti, qabaqcıl, demokratik ənənələri və s. öyrənən görkəmli alim Əziz Mirəhmədov müasir çap məhsullarının meydana gəldyi vaxta kimi olan bir dövrü geniş tədqiq etmişdir. O, milli kitabın ən qədim formalarından tutmuş müasir nəfis tərtibatla çap olunan kitabların müxtəlif növlərini araşdırmışdır. Tarixi tədqiqatların nəticələrinə görə Azərbaycan Milli Kitabının ilk böyük nümunəsi M.F.Axundovun 1859-cu ildə Tiflisdə çap olunan "Təmsilat" kitabıdır. Respublikanın ilk çap kitabı isə 1780-ci ildə Sankt-Peterburqda nəşr edilmiş "...Cəmi Rusiyyə imperiyasında əyalətlərin nizam tərtibatı üçün icad və imla olunmuş qanuni cədid" kitabı hesab edilir [22,26].

Görkəmli biblioqraf alim, professor Zöhrab Əliyev öz əsərlərində "Azərbaycan kitabı" göstəricisinin tərtibçisi, Azərbaycan Dövlət Kitabxanasının əməkdaşı Ə.Əliyevin materialların toplanmasında üzləşdiyi çətinliklərdən danışmış, əsərlərin bir yerdə yerləşməməsindən, 1920-ci ilə qədər vahid nəşriyyat sisteminin və qaydasının olmaması üzündən biblioqrafik təsvirlərdə vahid qaydaların tətbiq edilməməsindən, kitabların başqa dillərdə dünyanın müxtəlif ölkələrində toplanmasından bəhs etmişdir. Beləliklə, genişmiqyaslı axtarışlar nəticəsində meydana gəlmiş vəsait Azərbaycan kitabının ilk repertuarı hesab olunur.

Professor Z.Əliyev göstərmişdir ki, vəsaitin birinci cildində kitabların biblioqrafik təsvirləri əvvəl çap olunduqları əlifba (əski əlifba) ilə aparılır, sonra isə kiril əlifbası ilə transkripsiyası verilir. Hicri ilə çap olunmuş kitabın biblioqrafik təsvirində miladi təqvimi də göstərilir. On adda yardımçı göstərici mətn üzrə biblioqrafik axtarışın imkanlarını artırır [7, 83-84].

Göstəricidə əhatəlik dairəsinin dəqiq müəyyənləşdirilməməsi (məs.; hansı kitablar dəqiq Azərbaycan kitabı hesab olunur), yerli nəşrlərlə, ayrı-ayrı ölkələrdə çapdan çıxan kitabların eyni bölmədə yerləşdirilməsi nöqsan kimi göstərilmiş və bu çatışmazlığın aradan qaldırılmasına aşağıdakı kimi istiqamət verilmişdir:

1)Azərbaycan ərazisində (Azərbaycan və başqa dillərdə) çap olunmuş kitabların orijinal və tərcümə nəşrləri; 2) Azərbaycan müəlliflərinin və başqa millətdən olan müəlliflərin xarici ölkələrdə nəşr olunmuş kitabları [7, 86].

Kitabxanaçılıq-informasiya fakültəsinin Biblioqrafiyaşünaslıq kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Solmaz Sadıqova "Azərbaycan kitabı"nı öz monoqrafiyasında geniş araşdıraraq, sxem üzrə izahını belə vermişdir:

1) Yaşadığı yerdən asılı olmayaraq Azərbaycanda anadan olmuş müəllifin kitabları, 2) Xaricdə Azərbaycanla bağlı buraxılmış kitablar, 3) nəşr yerindən asılı olmayaraq Azərbaycan haqqında olan kitablar, 4) nəşr yerindən asılı olmayaraq Azərbaycan dilində çıxan kitablar, 5) anadan olduğu və yaşadığı yerdən asılı olmayaraq, Azərbaycan yazıçılarının əsərləri, 6) Azərbaycanla ərazi, dil, müəllif və məzmunca bağlı olan bütün kitablar, 7) kitabın istehsalına



görə Azərbaycana məxsus olması, 8) Azərbaycan daxilində bütün dillərdə nəşr olunmuş kitablar.

O, həmçinin vəsaitin ilk cildlərinin çatışmazlıq və anlaşılmazlıqlarını müəyyənləşdirmişdir. Lakin, bütün nöqsanlara və çatışmazlıqlara baxmayaraq göstəricinin Azərbaycan kitabının tarixini öyrənib, tədqiq etmək baxımından çox qiymətli və əvəzolunmaz mənbə olduğunu da qeyd etmişdir.

1982-ci ildə 7063 adda kitab haqqında informasiyanı özündə əks etdirən 1920-1940-cı illəri əhatə edən "Azərbaycan kitabı"nın II cildinin birinci kitabı çapa gedir. İkinci cildin ikinci kitabı həmin dövrdə təbiət elmlərinə, texnika və kənd təsərrüfatına dair dərc olunmuş kitabları əhatə etməli olduğu halda nədənsə çap olunmur.

2000-ci ildə Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsinin, o cümlədən Dövlət Kitab Palatasının ləğvi bir müddət vəsaitlərin tərtibi işini dayandırır və bu da dövlət biblioqrafiyasının uçotu işinə öz mənfi təsirini göstərir.

2003-cü ildə Dövlət Kitab Palatasının funksiyaları M.F.Axundov adına Milli Kitabxanaya verilir. Çap məhsullarının qeydiyyatı və milli biblioqrafiya şöbəsi (Kitab Palatası) milli kitabımızın repertuarının tərtibi, cari milli biblioqrafiyanın uçotu işlərinə başlayır. 2014-cü ildə vəsaitin nəşri bərpa edilir, 1941-1959-cu illəri əhatə edən "Azərbaycan kitabı"nın III cildi işıq üzü görür. "Azərbaycan kitabı" fundamental biblioqrafiyasının 3-cü cildinə 1941-1950-ci illərdə Azərbaycan ərazisində çap olunan, keçmiş SSRİ ərazisində Azərbaycan haqqında yazılan kitab və kitabçalar daxil edilir. Göstəricidə ümumilikdə 4897 ədəbiyyatın biblioqrafik təsviri verilmişdir və materiallar şöbələr üzrə universal onluq təsnifat əsasında ayrı-ayrı elm sahələrinə uyğun olaraq tərtib olunmuşdur. Şöbələr daxilində yarımbölmələr və rubrikalar ayrılmışdır. Hər bir bölmə və yarımbölmə daxilində əvvəlcə Azərbaycan dilində, sonra isə rus dilində olan ədəbiyyat daxili əlifba sırası ilə qruplaşdırılmışdır [3,4].

2016-cı ildə çapdan çıxan IV cildə 1951-1960-cı illərdə Azərbaycanda, keçmiş SSRİ-də, o cümlədən başqa ölkələrdə bütün elm sahələrinə dair çap olunan Azərbaycan haqqında 9954 kitab və kitabçalar, elə həmin il işıq üzü görən 4814 adda kitab və kitabça haqqında məlumatı özündə əks etdirən II cildin II kitabı 1921-1940-cı illəri əhatə edərək təbiət elmləri və texniki elm sahələrinə dair çap olunan ədəbiyyat haqqında informasiyanı özündə əks etdirirdi.

Oxucuların, alim və tədqiqatçıların istifadəsinə 2018-ci ildə təqdim edilmiş 5-ci cildin birinci kitabında 10 237 adda ədəbiyyatın biblioqrafik təsviri verilmişdir. Bu cilddə 1961-1970-ci illərdə humanitar elm sahələrinə aid Azərbaycan ərazisində, eyni zamanda digər müəlliflər tərəfindən Azərbaycan haqqında çap olunan kitablar və kitabçalar, II kitabında 1961-1970-ci illərdə dəqiq və texniki elm sahələrini əhatə edən 9016 adda ədəbiyyatın biblioqrafik təsviri öz əksini tapmışdır. Hazırda retrospektiv göstəricinin digər cildləri üzərində iş davam edir.

Azərbaycan kitabının repertuarını yaradan bu vəsaiti araşdırarkən həm ölkə ərazisində, həm də respublikamızdan kənarda Azərbaycan haqqında çap olunan kitabların nəşrinin inkişaf dinamikası ilə tanış olmaq olar.




Əgər inqilabdan əvvəl 1329 adda kitab qeydiyyata alınmışdırsa, 70-ci illərin sonlarında respublikada və onun sərhədlərindən kənarda çap olunan nəşrlərin sayı 19 253 adda olmuşdur. Bu gün əlimizdə olan rəqəmlər yalnız qeydiyyata alınan kitablardır. Təəssüflə onu da qeyd etməliyik ki, Azərbaycan ədəbiyyatının qeydiyyatı hələ də tam şəkildə həyata keçirilmir, çatışmazlıqlar yenə də mövcuddur.

XX əsrin ortalarında ölkə ərazisində çap olunan kitabları araşdırdıqda aydın olur ki, əgər 1960-1970- ci illərdə çap olunan kitabların əksəriyyəti kənd təsərrüfatı, onun müxtəlif sahələrini (kolxoz, sovxoz, aqrobiologiya, bitkiçilik, heyvandarlıq, baytarlıq və s.), mədəniyyət, elm, maarif (pedaqogika, ümumtəhsil məktəbləri haqqında, dərslik və dərs vəsaitləri), ədəbiyyatşünaslıq və bədii ədəbiyyatı əhatə edirdisə, 1980-ci illərdə ölkə ərazisində çap olunan kitabların əksəriyyəti ictimai-siyasi mövzuda ədəbiyyat idi. Bu da şübhəsiz ki, dövrün tələbi - kommunist ideologiyası ilə bağlı idi.

1985-ci ilin vəsaitinə nəzər saldıqda görürük ki, bədii ədəbiyyat, ədəbiyyatşünaslıqla yanaşı dəqiq elm sahələri, iqtisadiyyat, hüquq elmləri, həmçinin fəlsəfə, psixologiya sahəsində çap olunan kitabların çapında nisbətən artım hiss olunur.

Palatanın funksiyalarının M.F.Axundov adına Milli Kitabxanaya verilməsindən sonra "Birillik Azərbaycan kitabıyyatı" və "Yeni kitablar" annotasiyalı biblioqrafik informasiya bülleteninin nəşri bərpa olunaraq ötən illəri əhatə edən vəsaitlər də çap olunmuşdur.

Birillik Azərbaycan Kitabiyyatının 2005-ci ildə 1990, 1991 və 2000-ci illəri əhatə edən 3 buraxılışı çapa getmişdir. 2007-ci ildə 2001, 2003, 2004, 2005- ci illəri, 2008-ci ildə 2006, 2009-cu ildə 1992, 2002 və 2007, 2010-cu ildə 1999 və 2008, 2011-ci ildə 1996, 1997, 1998 və 2009, 2012-ci ildə 1994,



1995, 2010 və 2011, 2013-cü ildə 1993, 2011 və 2012, 2014-cü ildə 1989, 2013, 2015-ci ildə 1988 və 2014, 2016-cı ildə 2015, 2017-ci ildə 2016, 2018-ci ildə 2017, 2018-ci ildə 2019-cu illəri əhatə edən buraxılışlar nəşrə hazırlanıb oxucuların istifadəsinə təqdim edilmişdir. İl ərzində çap olunmuş kitabların tam əks olunması üçün digər kitabxanalara daxil edilmiş ədəbiyyat da vəsaitdə toplanmış və həmin kitabın hansı kitabxanada yerləşdiyi də qeyd edilmişdir.

Vəsaitlərdə təsvirlər QOST 7.1-2003 "Biblioqrafik yazı. Biblioqrafik təsvir. Ümumi tələbat və tərtibat qaydaları" əsasında tərtib edilmişdir. Materiallar elm və fəaliyyət sahələri üzrə dövlət biblioqrafiyası orqanlarında istifadə edilən təsnifat əsasında qruplaşdırılmışdır. Bölmələr daxilində əvvəlcə Azərbaycan, sonra isə rus dilində olan materiallar ayrıca verilmişdir. Hər bir bölmə və yarımbölmə daxilində əlifba prinsipi gözlənilmişdir. Vəsaitin sonunda oxucuların ondan istifadəsini asanlaşdırmaq məqsədilə köməkçi aparat – Azərbaycan və rus dillərində müəlliflərin əlifba göstəricisi və vəsaitdə sərlövhə üzrə təsvir olunmuş əsərlərin sərlövhəsinin əlifba göstəricisi verilmişdir.

Annotasiyalı biblioqrafik göstərici olan "Yeni kitablar" 2006-cı ildən çap olunmağa başlayır, Əvvəlcə 2 buraxılışda, 2007-ci ildən etibarən isə rüblük çap olunmağa başlayır. Milli Kitabxananın fondlarına daxil olan bütün yeni ədəbiyyat orada öz əksini tapır. Vəsaitə daxil edilmiş materiallar bölmələrin daxilində əvvəlcə Azərbaycan dilində, sonra rus və xarici dillərdə əlifba sırası ilə düzülür. Müəlliflərin və sərlövhələrin əlifba göstəricisi vəsaitdən istifadəni asanlaşdırır.

Məlumat üçün qeyd edim ki, bütün vəsaitlər Milli Kitabxananın saytında (www.anl.az) Kitabxanamızın nəşrləri bölməsində illər üzrə qruplaşdırılaraq yerləşdirilmişdir.

**Nəticə.** Respublikada çap məhsullarının qeydiyyatı işində hazırda hər hansı başqa bir idarə və ya təşkilat tərəfindən statistika aparılmadığı üçün yeganə orqan kimi Kitab Palatasının bu sahədəki fəaliyyətini əhəmiyyətli hesab etmək olar. Yuxarıda qeyd etdiyimiz bir sıra boşluqlar olsa da, bu gün palata ədəbiyyatın qeydə alınmasında bütün imkanlarından istifadə edir. Bu gün Palata Milli Kitabxanaya daxil olan və milli arxiv fondunu təşkil edən kitablarla yanaşı, digər kitabxanalara da daxil olan ədəbiyyatın imkan daxilində qeydini aparır və bu sahədə təşəbbüslərini günbəgün artırır.

Onu da qeyd etmək lazımdır ki, Palatanın işinə sadəcə il ərzində ölkə ərazisində çap edilən nəşrləri siyahıya almaq kimi bəsit yanaşmaq doğru olmaz. Çünki bu qeydiyyat bir çox digər tədqiqatlar üçün yol açmış olur. Belə ki, müəyyən dövrdə ölkədə çap edilmiş kitabların mövzusuna görə dövrün ictimai-siyasi, elmi, iqtisadi, ədəbi-mədəni həyatında baş verən tendensiyaları, inkişaf meyllərini üzə çıxarmaq olur. Bu araşdırmalar nəticəsində Azərbaycanda bir sıra sahələrin inkişafını, müvafiq istiqamətdə mövcud boşluqları bu istiqamətdə hökumətin qərarlarını da tədqiq etmək mümkündür. Eyni zamanda Azərbaycan kitabının müxtəlif dövrlərdə keçdiyi tarixi inkişaf yolunun tədqiqi də mühüm mənbə kimi bu siyahılara əsaslanır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan kitabı: biblioqrafiya.-Bakı, 1951.- 194 s.
2. Azərbaycan kitabı: biblioqrafiya. 3 cilddə /Azərb. SSR Mədəniyyət Nazirliyi, Azərb. SSR Kitab Palatası; tərt. ed. Ə.Y. Əliyev; red. hey.: H.Araslı, Ə.Mirəhmədov, M.Sultanov.- Cild 1 (1780-1920).-Bakı, 1963.- 218 s.
3. Azərbaycan kitabı: biblioqrafiya. 3 cilddə /AzSSR Nazirlər Sovetinin Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi, Azərb. Döv. Kitab Palatası ; tərt. ed. V.C. Mirzəyeva, M.Ə. Zabalova, N. A. İsmayılova; red. hey.: H. Araslı, Ə. Mirəhmədov.- Cild 2, Kitab 1 (1920-1940).-Bakı: Yazıçı, 1982.- 743 s.
4. Azərbaycan kitabı: biblioqrafiya: 10 cilddə /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. ed. L.Talıbova, B.Orucova, V.Məmmədova [və b.]; baş red., ön söz və müqəddimənin müəl. K.M. Tahirov; red. Z. Qulamova, L. Bağırova.- C. 2., K. 2 (1921-1940).- Bakı: [Azərbaycan Milli Kitabxanası], 2016.-550 s.
5. Azərbaycan kitabı: biblioqrafiya: 10 cilddə /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. ed. L.Talıbova, B.Orucova, V.Məmmədova [və b.]; baş red., ön söz və müqəddimənin müəl. K.M. Tahirov; red. Z. Qulamova, L.Bağırova.- C. 3. (1941-1950).- Bakı: [Azərbaycan Milli Kitabxanası], 2014.- 486 s.
6. Azərbaycan kitabı: biblioqrafiya: 10 cilddə /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. ed. L. Talıbova, B. Orucova, V. Məmmədova, N. Hüseynova; elmi red. K. M. Tahirov; red.: Z. Qulamova, L. Bağırova .- C. 5., K. 2 (1961-1970): Dəqiq və texniki elmlər.-Bakı: [Azərbaycan Milli Kitabxanası], 2018.- 822 s.
7. Əliyev, Z. Azərbaycan biblioqrafiyasının tarixi /Zöhrab Əliyev.- Bakı: Bakı Universiteti nəşriyyatı, 2007.-190 s.
8. Kitab letopisi: 1920-1925-ci illər.- Bakı, 1962.-66 s.
9. Azərbaycan kitab letopisi:1942-1946.-Bakı: Azərbaycan Dövlət Kitab Palatası nəşri, 1951.- 139 s.
10. Azərbaycan SŞC məcmuələr kitabiyyatı: 1920-1930-cu illər.- Bakı, 1932.
11. Jurnal məqalələri letopisi: 1931-1938.- Bakı,1965.-171 s.
12. Jurnal məqalələri letopisi: 1942-1946.-Bakı,1965.-88 s.
13. Birillik Azərbaycan Kitabiyyatı – 2011 /baş red. K.Tahirov; tərt. L.Talıbova, N.Rzaquliyeva.- Bakı, 2012.- 318 s.
14. Birillik Azərbaycan Kitabiyyatı – 2012 /baş red. K.Tahirov; tərt. L.Talıbova.- Bakı, 2013.- 349 s.
15. Birillik Azərbaycan Kitabiyyatı – 2013 /baş red. K.Tahirov; tərt. L.Talıbova.- Bakı, 2014.- 350 s
16. Birillik Azərbaycan Kitabiyyatı – 2016 /baş red. K.Tahirov; tərt. L.Talıbova.- Bakı, 2017.- 424 s.
17. Birillik Azərbaycan kitabiyyatı – 1985 / tərt. N.Ağayeva, Ə. Məmmədova.- Bakı, 1986.- 239 s.
18. Birillik Azərbaycan kitabiyyatı – 1980/ tərt. N.Ağayeva, M.Turabova.- Bakı, 1981.- 216 s.
19. Birillik Azərbaycan kitabiyyatı – 1975/ tərt. N.Ağayeva, M.Turabova.- Bakı, 1979.- 244 s.
20. Birillik Azərbaycan kitabiyyatı – 1965/ tərt. N.Ağayeva, M.Turabova.- Bakı, 1966.- 145 s.
21. Birillik Azərbaycan kitabiyyatı – 1960/ tərt. N.Ağayeva, M.Turabova.- Bakı, 1961.- 160 s.
22. Sadıqova, S. Azərbaycan milli biblioqrafiyası qlobal informasiya məkanında: monoqrafiya /Solmaz Sadıqova.- Bakı, 2018.- 305 s.
23. Talıbova, L. Milli biblioqrafik vəsaitlər sisteminin formalaşmasında Milli Kitabxananın rolu/Liliya Talıbova //Azərbaycan Milli Kitabxanası-90.- 2013.- S. 79-83.

**Амина Джафарова**

**Роль Книжной Палаты в проведении библиографического учёта документов в Азербайджанской Республике**

**Резюме**

*В статье освещается деятельность Книжной Палаты в области библиографического учёта документов по всей стране, а также важность национальной, текущей и ретроспективной библиографии. В то же время были подчеркнуты особенности публикаций в разных годах, аннотированных бибилиографических указателей являющейся первым государственным библиографическим органом таких как «Книжная Летопись», «Летопись печати Азербайджана», «Азербайджанская книга», «Ежегодник книги Азербайджана», «Новые книги»", структура и содержание указателей, а также была подчёркнута роль Книжной палаты в развитии ряда областей научной, культурной, экономической, социальной и политической жизни страны и в выявлении существующих пробелов.*

***Ключевые слова:*** Азербайджанская Государственная Книжная Палата, учёт документов, ретроспективная библиография, текущая библиография, Азербайджанская Национальная Библиотека, «Азербайджанская книга», «Летопись печати Азербайджана», «Азербайджанский ежегодник», «Книжная Летопись», «Летопись журналных статей Азербайджана», «Летопись газетных статей Азербайджана».

**Amina Jafarova**

**The Role of the Book Chamber of Bibliographic registration of documents in Azerbaijan Republic**

**Abstract**

*This article discusses the activities of Book Chamber in maintaining bibliographic registration of documents across the country, the importance of national, current and retrospective bibliography. At the same time, it is highlighted being the first state bibliography, such as "Book Chronicles", "Press Chronicles of Azerbaijan", "Annual books of Azerbaijan", "New books" publication features of annotated bibliographic indexes, in different years, the structure and content of indexes, the role of the Book Chamber in the development of a number of areas in the scientific, cultural, economic, social and political life of the country and discovery of existing gaps.*

***Key words:*** State Book Chamber of Azerbaijan, registration of documents, retrospective bibliography, current bibliography, Azerbaijan National Library, "Book of Azerbaijan", "Press Chronicles of Azerbaijan", "Chronicles of Azerbaijan Magazine Articles", "Chronicles of Azerbaijan Newspaper Articles".

**Rəyçi:** p.ü.f.dok.,dos. N.İ.İsmayılov